ədalət.-2017-18 fevral.-S.13.

# Şeirin ömrü

**Şeiri yarpaq titrədən meh bilirəm, çiçək ləçəyində şeh bilirəm, yağışdan sonra görünən qövsi-qüzeh bilirəm. Mehə də, şehə də, qövsi-qüzehə də mehrli könlüm şeir üzünə həmişə açıqdı... Görünməyən duyğular sözün qüdrətiylə görünür. Bu görüntülərin ilahi biçimi sözlə ifadə ediləndə çox ecazkar olur. Şair Şəmsi Vəfadarın "Səni ömrümə yazmışam" kitabında oxuduqlarım, oxuyub da gördüklərim kimi...**

Kitab şeir-şeir könlümə yatdı, könlümü şeir-şeir telləndirdi, məni şeir-şeir düşündürdü.

"Gülü yarpıza dönən çəmənzar" və "insan yükü azalan yollar" arasında analogiya görmək suç deyil, həsəd apara-apara düşünmək də. Bu anologiyanı sezərək duyğuya həsəd aparmaq da suç deyil, həsəd apara-apara düşünmək də. Şeir məhz belə suçlara görə könüləyatan olur.

Şəmsi Vəfadarın "Yollarım ağlar" şeiri böyük bir mətləbin poetik dərkidi, poetik dərkin nəticəsi olan poetik təqdimatdı. Getdiyi yol Onu nə vaxtsa qaytarmalıydı. Gəlmədimi, yolların Onu qaytarmağa qüdrətimi çatmadı? - bilinmir (və nə yaxşı ki, bilinmir!). Bədii "mən"in yollardan yığılmayan gözlərini görüncə qəhərini udan yolların gözləri dolur - için-için ağlayır. Belə bir məqama söz ömrü vermək qüdrətdi. Şəmsi Vəfadar bunu poetik fikir biçimində o qədər incəliklə təqdim edib ki, o yolların nələr çəkdiyi aydınlığıyla duyulur.

Şəmsi Vəfadar çarəsizliyin poetikasını da aça bilib; çarəsizlik - "nə edim, necə edim?" müəmmadı və bu müəmma ya çözülmür, ya da çətin çözülür... "Qəmin üstünə" şeirində də belədi. Şeirdə çarəsizliyin düyün düşdüyü sezilir və kimsəyə bəlli olmayan sirri açmağa qərar verən bədii "mən"in ünvansızlıq ağrılarını, sızıltılarını ürəyində hiss edirsən. o ünvan dərdqananın, dərdanlayanın ünvanıdı: Mən gedim kimin üstünə? "Üstünə getmək" - kimdən imdad istəmək anlamındadı və poeziyamızda az-az təsadüf edilən gözəl deyimlərdəndi. "Kimin üstünə getməyi" qərarlaşa bilməmək azmış kimi, "yollar da çənli-çiskinlidi". Di gəl, "koru körpüdən keçir"...

"Ürəyimi aparma" ifadəsində sezilməsi çətin olmayan sevgi uçunur. Bu uçunma təəssüfdümü, gileydimi, hər nədirsə, bədii "mən"in qübarıdı. Bu məhrəm qübar "eşqdir mehrabı uca göylərin" (Nizami) deyənlərin qübarıdı, "bəlayi-eşq ilə qıl aşina məni" (Füzuli) deyənlərin qübarıdı, "dəydi oxum daşa, könül" (M. Müşfiq) deyənlərin qübarıdı, onların sələfi olan Şəmsi Vəfadarın qübarıdı. Həm də səmimiliyinə zərrəcə şübhə etmədiyim qübardı... Misralarını oxuyandan sonra necə inanmayasan ki, bədii "mən"in "ürəyinin yarasından gecə-gündüz qan damır"...

"Sözdən asmaq" söz birləşməsi idiomatik ifadədi və mahiyyəti etibarilə sözə güvənmədi, sözü öz layiqli mərtəbəsində görməyin (sözə inanmanın!) təzahürüdü - sonun da sözdən gəlməyini arzulamadı. Şair sözü çürüklərə, sözə sayğısızlara görəmi özünü sözdən asmaq istəyir? Əslində, şeirin fikir yozumu ocaq söndürənləri közdən, sözə biganələri "sözdən asacam" kimi qəbul edilməlidir; şair kəlamı sözü isindirən közün (duyğuların), közə (duyğulara) yaşam verən sözün mühafizəkarıdı...



Göresən şeirdə tüstüsü istisindən çox olan ocağın közünün öləzidiyinə (öləzidildiyinə) görədirmi bu qəzəb? Şeirin mahiyyətindən dikələn heysiyyət deyir ki,

**Kim ki, sevir Vətəni**
**Güllə gəlmir eyninə**

**("Güllə")**

şairin təsəllisi bu və bu kimi misralardı.

"Mən açım dərdimi..." şeirini tarixin üzüqaralığına üsyan (şair üsyanı) kimi oxudum. "Gülüstan" müqaviləsinə üsyandı, ayrılığa üsyandı, Şəhriyar demişkən, "fəraq odlarına" üsyandı. Bu üsyan Araza birlik çayı deyilinəcən davam edəcək...

1992-ci ildə "Ədalət" qəzetində Mehman Cavadoğlunun "Azərbaycan bir olsun, paytaxtı hara olsun?" məqaləsini xatırlayıram. Onda bu ritorik suala cavab tapa bilməmişdim. Aradan illər keçib. İndi deyə bilərəm ki, Azərbaycan bir olanda paytaxtı milli ruhumuz olacaq, milli ruhumuzu yaşadanların, bu sıradan

**Birləşdirməyincə Azərbaycanı,**
**Ömrümü özümə haram bilirəm**

**("Bilirəm")**

beytini, "İstəyirəm torpaq olum" ("Yoruldum adam olmaqdan"), "Dan yeri... sökülür ümid-ümid" ("Cadır şəhərciyi") "Nida - başdaşıdı, misra-məzardı" ("Söhbət yeri"), "Analar məzarları ağılar ilə bəzər" (Şəhid məzarı"), "Sazaqlardan çıxmışam, üşüyə də bilmirəm" ("Bilmirəm") kimi yüksək bədii dəyərə malik misraları (ümumən şeirləri) yazan Şəmsi Vəfadarın ürəyi olacaq.

Sevdanın (sevginin) xatirəyə dönməsi həsrətin qələbəsidi. İnsaflı həsrət sevdanı (sevgini) xatirə biçimində yaşadır. Şəmsi Vəfadar "alnında qırışa, gözündə yağışa dönən ("Xatirəyə dönən sevgi") həsrəti elə sevdası qədər əzizləyir. Poeziya budu!..

**Sözün (şeirin) də ömrü var. Yaxşı şeirin ömrünün başlanğıcı olur, sonu, nəhayəti yox...**

**Rəşid Faxralı**